*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 16 mart 2016-cı il | № 20 (2035) | Qiyməti 25 qəpik


General-polkovnik Zakir HƏSƏNOV:

## Silahlı Qüvvələrimizin ən başlıca vəzifəsi xalqımız və dövlətimizin etimadını doğrultmaq, işğal olunmuş torpaqlarımızın azad olunmasını təmin etməkdir

### Müdafiə naziri cəbhəboyu zonada yeni tikilmiş daha iki hərbi hissənin açılışını edib

***Martın 11-də Müdafiə Nazirliyinin rəhbərliyi cəbhəboyu zonada yeni inşa edilmiş növbəti iki hərbi hissənin açılışında iştirak edib.***



Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi hissələrin ərazisindəki qərargahlar, əsgər yataqxanaları, tədris kompleksləri, döyüş texnikaları üçün saxlanclar, qarovul şəhərcikləri, sıra meydanları, tibb məntəqələri, hamam-camaşırxana-qazanxana kompleksləri və digər inzibati obyektlər ilə tanış olub.

Yeni hərbi hissələrin açılış mərasimində şəxsi heyət qarşısında çıxış edən Müdafiə naziri Silahlı Qüvvələrin daim xalqımızın və Ali Baş Komandan cənab İlham Əliyevin qayğısı ilə əhatə olunduğunu diqqətə çatdırıb.

(Ardı 2-ci səhifədə)

## Ermənistan həmişə olduğu kimi, döyüşdəki itkilərini qəsdən gizlədir

Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində son itkiləri ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyindən bildiriblər ki, düşmən tərəfi həmişə olduğu kimi, döyüşdəki itkilərini qəsdən gizlədir, ictimaiyyətinə müxtəlif adlar altında çatdırmaqla çaşqınlıq yaradır.

Ermənilər əsgərlərinin ölməsi faktlarını yol-nəqliyyat qəzaları, xəstəliklər, bədbəxt hadisələr və silahla ehtiyatsız davranma kimi qələmə verirlər.

Düşmən Ermənistandan gətirilən əsgərlərin işğal olunmuş ərazilərimizdə ölməsini açıqlamaq məcburiyyətində qalsa da, Dağlıq Qarabağdan çağırılanların, muzdlu kimi fəaliyyət göstərənlərin ölüm hallarını məharətlə gizlədir və öz xalqını aldadaraq yanlış fikir formalaşdırır.

## Rudi Matyaşiç: "İrəli sürdüyüm təşəbbüslə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə töhfə vermək istəyirəm"

Bu il yanvarın 20-də Sloveniya Respublikasının Milli Şurasının üzvü Rudi Matyaşiçin təşəbbüsü əsasında qurum Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qərar qəbul edib. Qərarda Sloveniya Milli Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılması və məcburi köçkünlərin təhlükəsiz və rahat şəkildə öz doğma yurdyuvalarına qayıtmasını nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri əsasında həllinin dəstəklənməsinə çağırıb. Qətnamədə, həmçinin Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində törədilmiş soyqırımının insanlığa qarşı cinayət olduğu vurğulanıb və faciənin 24-cü ildönümü ilə əlaqədar Azərbaycan xalqına başsağlığı ifadə edilib.

Həmin qətnamə layihəsinin müəllifi, Sloveniya parlamentinin üzvü Rudi Matyaşiç təşəbbüsü ilə bağlı fikirlərini AZƏRTAC-a bildirib. O qeyd edib ki, bu təşəbbüs onun bu qəbildən olan münaqişə və fikir ayrılıqlarının beynəlxalq hüquq normalarına əsaslanaraq dinc şəkildə həll edilməsinə inamının təzahürüdür. Rudi Matyaşiç deyib: "Bununla əlaqədar olaraq mən bu məsələnin həlli yolunun tapılmasına müsbət töhfə vermək istəyirəm".

Beynəlxalq hüquq müddəalarını tətbiq edərək münaqişələrin sülh yolu ilə həllinin və əmin-amanlığın tərəfdarı olduğunu bildirən R.Matyaşiç bundan əlavə 2014-cü il dekabrın 4-də Milli Şuranın iclasında da ATƏT-in Minsk Qrupunun himayəsi altında Dağlıq Qarabağ ərazisində sülh prosesinin aktivləşdirilməsinin təşəbbüskarı olduğunu qeyd edib.

Sloveniyalı parlamentari bildirib ki, onun ölkəsi mübahisələrin və fikir ayrılıqlarının məsul beynəlxalq təşkilat kimi ATƏT çərçivəsində sülh yolu ilə həll edilməsinə inanır. Sloveniya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ATƏT-in və Minsk Qrupunun həmsədrlərinin səylərini dəstəkləyir.



Vətən qorunanda sənin olur

3-cü səhifədə



"Qarabağa yaz gələcək"

4-cü səhifədə



Sağlamlığı qorumaq müqəddəs vəzifədir

5-ci səhifədə



Onlar sabahın əsgərləridir

8-ci səhifədə

# Müdafiə naziri Çexiya Parlamentinin nümayəndə heyəti ilə görüşüb

***Martın 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Çexiya Respublikası Parlamentinin Deputatlar Palatasının Müdafiə Komitəsinin sədri David Kadnerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Müdafiə naziri qonaqlara regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətraflı məlumat verib, müxtəlif sahələrdə inkişaf edən ikitərəfli əməkdaşlığı yüksək qiymətləndirib və hərbi-texniki sahədə münasibətlərin genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə Çexiya Respublikası hərbi-sənaye şirkətlərinin nümayəndələri ilə Silahlı Qüvvələrimizin silahlanmasındakı döyüş texnikası və avadanlıq, eləcə də Hərbi Hava Qüvvələrinin aviasiya vasitələrinin modernizə olunması və yenilənməsi, texniki baxımdan yerli şəraitə uyğunlaşdırılmış müasir müşahidə sistemlərinin əldə edilməsi, eləcə də hərbi təhsil, qarşılıqlı təcrübə səfərləri və maraq doğuran digər mövzulara dair geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Ankara şəhərində törədilmiş xain terror aktı nəticəsində həlak olan və xəsarət alanlarla bağlı Türkiyə Respublikasının Milli Müdafiə naziri cənab İsmət Yılmaza və Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Hulusi Akara başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Qardaş Türkiyə Respublikasının Ankara şəhərində baş vermiş xain terror aktı nəticəsində çoxlu sayda insanın həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Biz bu dəhşətli hadisədən çox hiddətlənir, terrorizmi qətiyyətlə pisləyirik. Terrora qarşı aparılan kəskin mübarizədə daima qardaş Türkiyə Silahlı Qüvvələrinin yanındayıq və var gücümüzlə dəstəkləyirik.

Bütün yaralılara Tanrıdan şəfa diləyirəm. Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin."

General-polkovnik Zakir HƏSƏNOV:

# Silahlı Qüvvələrimizin ən başlıca vəzifəsi xalqımız və dövlətimizin etimadını doğrultmaq, işğal olunmuş torpaqlarımızın azad olunmasını təmin etməkdir



(Əvvəli 1-ci səhifədə)

Nazir orduda bütün istiqamətlər üzrə həyata keçirilən islahatların mərhələli surətdə uğurla davam etdiyini, silahlanmaya ən müasir silah-sursatın, digər texniki döyüş vasitələrinin qəbul edildiyini, şəxsi heyətin döyüş hazırlığı və sosial-məişət şəraitinin yüksəldiyini qeyd edib.

"Ordumuzun döyüş qabiliyyətinin daha da artırılması, onun texniki imkanlarının genişləndirilməsi ilə bağlı qarşıda icra edəcəyimiz tapşırıqlar var. Silahlı Qüvvələrimizin ən başlıca vəzifəsi xalqımız və dövlətimizin etimadını doğrultmaq, işğal olunmuş torpaqlarımızın azad olunmasını təmin etməkdir. Hər bir əsgər və zabit bu məqsədə çatmaq üçün düşmənə qarşı qisas hissi ilə yaşamalıdır", - deyə general-polkovnik Zakir Həsənov bildirib.

Son günlər cəbhədə düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edildiyini xatırladan Müdafiə naziri bundan sonra da müxtəlif istiqamətlərdə qarşı tərəfə sarsıdıcı zərbələrin vurulmasının vacibliyini vurğulayıb.

Çıxışının sonunda şəxsi heyəti qarşıdan gələn Novruz bayramı münasibəti ilə təbrik edən nazir hərbi qulluqçulara xidmətdə uğurlar arzulayıb.

Şəxsi heyət təntənəli marşla tribuna önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.



Sonra Müdafiə naziri Silahlı Qüvvələrin tələblərinə cavab verən ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş və yerli şəraitə uyğunlaşdırılmış mobil səhra hospitalının fəaliyyəti ilə tanış olub.



Tibb xidməti personalı ilə görüşən Müdafiə naziri səhra hospitalındakı çeşidləmə, diaqnostika, əməliyyat, reanimasiya, müayinə, komanda-idarəetmə və rabitə bölmələrinə baş çəkib, eləcə də onların fəaliyyəti ilə maraqlanıb.

Həmin gün Müdafiə naziri cəbhə xəttində yerləşən bölmələrdə olub, şəxsi heyətin döyüş hazırlığı, müdafiə zolağının daha da təkmilləşdirilməsi, düşmənin istənilən fəaliyyətinin aşkar edilərək ona qarşı qabaqlayıcı tədbirlərin görülməsi ilə bağlı müvafiq göstəriş və tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar çavuş Vüsal HƏMİDOVUNDUR**

*Ön xətdən reportaj*

# Vətən qorunanda sənin olur

***Zabit Vaqif Bayramovla bölüyün dayaq məntəqəsinə çatanda bizi baş leytenant Hilal Tarverdiyev qarşıladı. Düşmənlə təmas xəttində yerləşən qərargahdan bölmənin dayaq məntəqəsinə xeyli yol gəldik.***



Düşmənlə çox da uzaq olmayan mövqelərimizdə əsgərlər üçün hər cür şərait yaradılıb. Vətən müdafiəçilərinin qərarlaşdıqları bu yerdə döyüş aparmaq üçün qazılmış istehkamlar və atəş sektorları tələblərə uyğun səviyyədə hazırlanıb. Baş leytenant Hilal Tarverdiyev bildirdi ki, düşmənin istənilən hücumunun qarşısını almaq üçün müdafiə təşkil edilib. Müşahidə məntəqəsini elə yerdə yaradırıq ki, düşmən istiqamətindən hiss olunan təhlükə daim nəzarətdə olsun.

Zabitlə söhbətdən məlum olur ki, o, kifayət qədər təcrübəlidir. Əslən Kəngərli rayonundan olan Hilal Tarverdiyevin orta məktəb illərindən hərbçi peşəsinə marağı olub. Öncə Heydər Əliyev adına Hərbi Liseydə təhsil alıb. Sonra ümumqoşun ixtisası üzrə ali hərbi təhsilini davam etdirib. Gənc zabit kimi ehtiyatda başlasa da, qısa vaxtdan sonra ön xətdə xidmətə göndərilib. Hilal bir neçə ildir ki, bölük komandiri vəzifəsinə təyin edilib.

Yaxın tanışlıqdan məlum olur ki, Hilal Tarverdiyev döyüşçü ailəsində anadan olub. Atası Əjdər ermənilərin Azərbaycana qarşı müharibəyə başladığı illərdə çoxları kimi könüllü orduya gedib. Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhəd ərazilərində gedən ağır döyüşlərdə iştirak edib. Əjdərin və yüzlərlə onun kimi döyüşçünün qətiyyəti sayəsində düşmən Naxçıvana ayaq aça bilməyib. Döyüşçü ailəsində böyüyən oğlun da zabit peşəsini seçməsi təsadüfi deyil.

Bölük komandirilə söhbət zamanı yaxınlıqda yerləşən müşahidə postuna boylanıram. Bunu görən zabit - oradan düşməni yaxşı görmək olur, - deyir və posta doğru gedirik. Həmsöhbətimin xidmətə tələbkar olduğunu bölüyün dayaq məntəqəsində yaradılan nizam-intizamdan, səliqə-sahmandan hiss etmək olur.

Müşahidə postundayıq. Burada tam döyüş sursatı ilə təmin olunmuş əsgər müşahidə aparır. O, postda olduğu müddətdə müşahidə ilə bağlı məlumat verir. Əraziyə yaxından bələd olduğunu hiss edirəm. Əslində, döyüş növbəsində olan əsgərin sayıqlığı digər döyüşçü yoldaşlarının da təhlükəsizliyi deməkdi. Ona görə də hər bir döyüşçü günün istənilən vaxtında müşahidə aparan zaman diqqətli olmalıdır.

Əsgər Elnur Kazımov deyir ki, bəzən gecənin lal sükuta qərq olmuş çağında düşmən atəşkəsi pozaraq posta girməyə cəhd edir. Onlar isə düşməni vaxtında aşkar edir və belə cəhdlərin qarşısını alırlar.

Düşmənlə üz-üzə olan bu yerlərdə xidmət etmək çətin olsa da, şərəflidir. Vətəni qorumaqdan, onun müdafiəsində mətin dayanmaqdan önəmli heç nə yoxdur. İnanıram ki, bacarıqlı zabit və onun döyüşçüləri bu şərəfli vəzifənin öhdəsindən daim inamla gələcəklər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**



## "TURAZ Şahini - 2016" təlimlərində ətrafı tanıma uçuşları keçirilib

"TURAZ Şahini - 2016" birgə taktiki-uçuş təlimləri davam edir. Təlimlərin ssenarisinə əsasən, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları ətrafı tanıma uçuşlarını icra ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, uçuşlardan əvvəl təyyarəçilər üçün brifinq təşkil olunub, hava şəraiti və digər texniki məsələlər müzakirə edilib.

Sonra türkiyəli pilotlar MiQ-29 qırıcı və Su-25 hücum, azərbaycanlı hərbi təyyarəçilər isə F-16 qırıcı təyyarələrində uçuşlar keçiriblər.

Təlimlər davam edir.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

Tbilisi şəhərində (Gürcüstan) martın 13-dən 18-dək NATO-nun əməliyyat imkanları konsepsiyası çərçivəsində "məsləhətçi görüş" və martın 13-dən 19-dək "NATO-da hərbi tərəfdaşlığın koordinasiyası" üzrə növbəti işçi görüşlər keçirilir.

Martın 14-dən 16-dək İstanbul şəhərində (Türkiyə) "Beynəlxalq hərbi elmlər və təhlükəsizlik - 2016" konfransı, martın 14-dən 19-dək Sarayevo şəhərində (Bosniya və Herseqovina) NATO-nun regional kollektiv təlimi planlaşdırma kursu, martın 14-dən 25-dək Latina şəhərində (İtaliya) qüvvələrin açılmasının və hərəkətinin idarəedilməsi sistemi üzrə təməl kursu, martın 14-dən 25-dək Ankara şəhərində (Türkiyə) qərargah zabitləri üçün böhranlara cavab əməliyyatları kursu, martın 14-dən aprelin 8-dək İstanbul şəhərində (Türkiyə) əldə düzəldilmiş partlayıcı maddələrin zərərsizləşdirilməsi kursu və martın 14-dən aprelin 29-dək Şrivenhem şəhərində (Böyük Britaniya) geniş təhlükəsizlik kontekstində müdafiənin idarə olunması üzrə kurs keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri də iştirak edirlər.

# Sizə güvənirik, Azərbaycan əsgəri!

***Cəbhə bölgəsinə yola düşürük. Avtomobili idarə edən kiçik çavuş Aydın Tağıyev Tərtər rayonunun Ələsgərli kəndindəndir. Ərazinin relyefinə yaxşı bələddir. Hərbi hissəyə gəldiyi az müddətdə qorxmazlığı, cəsarəti ilə hamının hörmətini qazanıb.***

Doğulduğu yurdun gecə-gündüz müdafiəsində dayanıb onu yağılardan qorumaq vətənpərvər oğullarının şərəf borcudur. Ezam olunduğumuz "N" hərbi hissəsində bir daha bunun şahidi olanda ürəyimiz dağa dönür. Cavabdeh zabitlərdən biri Samir Səfərov bildirir ki, ön xətdəki hərbçilərimizin döyüş və mənəvi-psixoloji hazırlıqları daha yüksək səviyyədədir. "Təlim görmüş əsgərlərimiz silahlardan istifadə qaydalarını mükəmməl bilir, tapşırıqları vaxtında yerinə yetirirlər. Xidmətimiz yalnız bir məqsədə - şəxsi heyətin döyüş hazırlığının artırılmasına yönəlib. Bu gün bütün bölmələrimizin hamısı düşmənin hər hansı təxribat xarakterli hücum cəhdinin qarşısını almağa qadirdir."

Əsgərlərimizin məişət şəraiti ilə yaxından tanış oluruq. Yataqxana və yeməkxanaya baş çəkirik. Burada şəxsi heyətin məişət qayğıları yetərincə həllini tapıb. Müasir əsgər yataqxanasında hərbi qulluqçuların asudə vaxtının səmərəli təşkili üçün yüksək şəraitin yaradıldığının şahidi oluruq.

Tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini zabit Müseyib Zeynalov əsgərlərin qidalanması barədə sualımızı cavablandırarkən qeyd etdi ki, ərzaq təminatı ilə baş çavuş Anar Quliyev məşğuldur. O, vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Şəxsi heyətin səhər, nahar, şam yeməklərinin keyfiyyətli hazırlanmasına ciddi fikir verir.

Nahar masası arxasında əyləşən əsgərlərdən İbrahim Mustafayev, Sənan Şahməmmədov, Nəcəfqulu Hüseynov, Kərim Kərimov və başqaları bildirirlər ki, hər gün onlar təzədən yağ, pendir, yumurta, süd-lü sıyıq yeyirlər. Əsgər menyusuna cürbəcür şirələr və meyvələr daxil edilib, tərəvəz, ət xörəklərinə daha çox üstünlük verilir.

Həmsöhbətim zabit M.Zeynalov onu da deyir ki, manqa komandiri kiçik çavuş Hüseynağa Quliyev, bacarıqlı əsgərlərdən Nasir Ataxanlı, Dilqəm Səfərli, Vüsal Yusifzadə, Rahim Kərimov, Rafiq Həsənli, Orxan Axundov, Ramazan Abakarov və digərlərinin müsbət nümunəsi şəxsi heyəti döyüş növbətçiliyini ayıq-sayıq aparmağa tam səfərbər edir. "Şəxsi heyət arasında bütün səviyyələrdə sağlam münasibətlər qurulub və bu da qarşılıqlı etibarın, silahdaşlıq prinsiplərinin qorunmasının göstəricisidir".



Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini leytenant Natiq Hüseynov əsgər Əli Məmmədovun igidliyindən, düşmənlə döyüşdə fədakarlıq nümunələri göstərməsindən fəxrlə danışır. Deyir ki, əsgər əslən Neftçala rayonundandır. "Orta təhsillidir. Hərbi peşəsinin taktikasına dərindən yiyələnib. Xidmətə böyük marağı var. Tabeliyində olan silahın taktiki-texniki xüsusiyyətlərini, ondan istifadə qaydalarını mükəmməl bilir. Keçirilən təlimlərdə uğurlu nəticələr göstərir. Vətənimizin belə mərd oğulları qəhrəman döyüşçülərin davamçılarıdır."

Əsgərlərdən Emin Şəmşiyev və Pərvin Allahverdiyev də silahdaşları ilə birlikdə Vətənin müdafiəsindədirlər. Müşahidə zolağında əşyaların şərti adlarını dəqiq öyrəndiklərinə görə hər ikisi məlumatın ötürülməsi işini layiqincə yerinə yetirir və ayıq-sayıq hərəkətləri ilə başqalarından fərqlənir.

Döyüş növbəsini təhvil verib istirahətə çıxan hər iki əsgərlə görüşürəm. Onlar səngər həyatı yaşamaqları ilə fərəhləndiklərini deyirlər: "Səngər bizi daha da yaxınlaşdırır. Ordu sıralarında döyüş sənətinə sahib olmuşuq. İnanın bizlərə, güvənin tükənməz gücümüzə. Həsrətlə baxdığımız o əsir elobamızı erməni işğalçılarından azad edəcəyik".

Sizə inanır və güvənirik, Azərbaycan əsgəri! Siz hünərinizlə Vətənin yeni qəhrəmanlıq səhifələrini yazacaqsınız!

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**M.MÖHBALIYEVİNDİR**

# "Qarabağa yaz gələcək"

## Müdafiə Nazirliyi və Xocavənd rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə bayram tədbiri keçirilib



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi Silahlı Qüvvələrdə Novruz bayramının keçirilməsi ilə bağlı tədbirlər planına əsasən, ilk teatrlaşdırılmış kütləvi hərbi vətənpərvərlik mərasimi Xocavənd rayon İcra Hakimiyyəti ilə birgə təşkil edilib.***

Xocavənd rayonu nəinki Azərbaycanın, habelə dünyanın ən qədim yaşayış məskənlərindəndir. Azıx və Tağlar mağaraları, neçə-neçə arxeoloji və memarlıq abidələri, alban kilsələri, köhnə qəbiristanlıqlar, pirlər, ocaqlar zaman-zaman dünya səyyah və arxeoloqlarının diqqət mərkəzində olub. Keçmiş Sovetlər İttifaqı ərazisində ən qədim abidə Xocavənd rayonu ərazisində idi. Rayon 1923-cü ilədək Aşağı Qaranlıq adlandırılmışdır. Bu ad rayon ərazisindəki Qaranlıq dağından götürülüb. Lakin XIX əsrin sonlarında bura köçürülmüş ermənilərin hesabına rayonda onların sayı çoxaldılmış, azərbaycanlılar sıxışdırılaraq öz doğma yurd yerlərindən zorla çıxarılmışlar. Ermənilər burada



məskunlaşdıqdan sonra rayon Nijni Qaranlıq, Cümməbazarı, Xonaşen, Martuni adlandırılıb. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci ildə rayonun adı Xocavənd, yəni "Xocalı nəsli" kimi rəsmiləşdirilmişdir.

1992-ci ilin oktyabrında Xocavənd rayonu Ermənistan silahlı bölmələri tərəfindən işğal olunsa da, xocavəndlilər son



gülləyə, son ana qədər vuruşublar. 146 nəfər şəhid verib Xocavənd. 300 nəfərdən çox insan sağlamlığını itirib və ya əlil olub. 243 uşaq valideynlərindən birini, 68 qadın həyat yoldaşını itirib. Girov götürülmüş 110 nəfər dinc sakindən 49 nəfəri əsir və girovluqda ermənı vəhşiliyinin qurbanı olub, bir ailədən 3 uşaq hər iki valideynini itirib. Azərbaycanlılar yaşayan 10 kənd tamamilə dağıdılaraq viran edilib. Bunlara baxmayaraq, xocavəndlilər ruhdan düşməyib, ümidləri qırılmayıb, Xocavəndə qayıdacaqları günü səbirsizliklə gözləyirlər.

İndi Silahlı Qüvvələrimizin bütün qoşun növlərində, xüsusilə cəbhə bölgələrində neçə-neçə xocavəndli Vətən qarşısında əsgəri borcunu şərəf və ləyaqətlə yerinə yetirir, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində hərbi ixtisaslara yiyələnir.

Xocavəndlilər bu gün də ordumuzla birlikdə Qarabağ uğrunda döyüşlərə atılmaq üçün Ali Baş Komandanın hər bir əmrinə hazırdırlar.

Bütün bunlar barədə yeni salınmış Xocavənd qəsəbəsində "Qarabağa yaz gələcək" devizi altında keçirilən ordu ilə xalqın birlik bayramında geniş söhbət açılıb.

Bayraq meydanına doğru irəliləyən yürüş iştirakçıları öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini ziyarət edərək qarşısına gül dəstələri düzüb, ulu öndərin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Bayraq meydanına toplaşan böyük izdiham Müdafiə Nazirliyi rəsmilərini, millət vəkillərini, ayrı-ayrı rayonlardan gələn Xocavənd uğrunda döyüşlərin iştirakçılarını, müharibə veteran və əlillərini alqışlarla qarşılayıblar.

Əməkdar incəsənət xadimi Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə keçirilən tədbir Xocavənd rayonu tarixində əlamətdar hadisə, ordu ilə xalqın monolit birliyinin nümayişi olmaqla yanaşı, həm də tamaşaçılarda tezliklə Qarabağa yaz gələcəyinə böyük inam aşılayıb.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin hərbi orkestri "Azərbaycan fanfarası"nı ifa edib.

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansanblının, rayon Mədəniyyət və Turizm, Təhsil şöbələri birləşmiş özfəaliyyət



kollektivlərinin, tanınmış incəsənət ustalarının iştirakı ilə keçirilən teatrlaşdırılmış kütləvi vətənpərvərlik mərasimi böyük coşqu ilə qarşılanıb.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov qonaqları və tədbir iştirakçılarını salamlayıb. Novruz bayramı ərəfəsində belə bir kütləvi vətənpərlik tədbirinin çox böyük əhəmiyyət kəsb etdiyini, bu tədbirin xocavəndlilərə, cəbhə bölgəsində xidmət edən Azərbaycan əsgərinə gözəl Novruz töhfəsi olduğunu vurğulayıb və tədbirin təşkilatçısı olan Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.



Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev, millət vəkillərindən Elman Məmmədov, professor Xanhüseyn Kazımlı, birlik komandiri polkovnik Mais Bərxudarov, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri, ehtiyatda olan polkovnik Mehdi Mehdiyev və başqaları çıxış edərək, Azərbaycan Ordusunun güc və qüdrətindən, xalqın daim öz ordusuna arxadayaq olmasından və hər gün atəşkəs rejiminin pozulmasına baxmayaraq Vətən müdafiəçilərinin xalqımızı xoş xəbərlərlə sevindirdiyindən qürur duyduqlarını bildiriblər.

Vizual görüntülərlə müşayiət olunan ordu ilə xalqın birlik bayramında bir-birindən maraqlı ədəbi-musiqili kompozisiyalar, etnoqrafik lövhələr, ordu həyatından səhnələr canlandırılıb.

Bir qrup Qarabağ müharibəsi veteranı və hərbi qulluqçu Müdafiə Nazirliyinin hədiyyələri, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin təsis etdiyi "Fədai" medalı ilə təltif olunub.

Tədbirin sonunda bütün iştirakçılar Heydər Əliyev ideyalarına, Vətənə, xalqa, dövlətə sadiq və Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmrlərinə hər an hazır olduqlarını Azərbaycan Respublikasının Dövlət himnini birlikdə ifa etməklə bir daha bəyan ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Tibb xidməti*

# Sağlamlığı qorumaq müqəddəs vəzifədir

***Son illər ordumuzun sürətli inkişafından və qazandığı nailiyyətlərdən danışarkən hərbi tibb sahəsinin inkişafını da xüsusi qeyd etməliyik. Silahlı Qüvvələrimizdə ən müasir avadanlıqlarla təchiz olunmuş tibb müəssisələrində savadlı, təcrübəli həkimlər zabit və əsgərlərimizin sağlamlığının keşiyində dayanıblar. Bu xidmətlərlə daha yaxından tanış olmaq üçün Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında olduq.***

Ümummilli lider Heydər Əliyev:
*Səhiyyə sahəsində çalışan, öz həyatlarını tibb xidmətinə həsr edən insanlar çox şərəfli adamlardır. Onların hər biri çalışmalıdır ki, bu şərəfli adı daim yüksəklərə qaldırsın.*

Mərkəzi Hərbi Poliklinikanın rəisi, tibb xidməti polkovnik-leytenantı Mehriban Quliyeva Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun orduya və tibb sahəsinə də xüsusi diqqətindən ağızdolusu danışaraq bildirdi ki, Mərkəzi Hərbi Poliklinika hərbi tibb sahəsində çox mühüm bir obyektdir. "İlkin müraciətlər bura olur və həkimlərimiz mümkün olduğu qədər tez bir zamanda müayinələr apararaq bütün lazımi əməliyyatları yerinə yetirirlər. Bölmələrimiz yeni tibbi avadanlıqlarla təchiz olunub. Şəxsi heyətin müayinə və müalicəsi üçün zəruri bölmələr və kabinetlər fəaliyyət göstərir. Poliklinika Bakı Qarnizonu hərbi hissə və təşkilatlarının zabit, gizir və əsgərlərinin ambulator müayinə və müalicəsini aparır. Burada hərbi qulluqçularla yanaşı, ehtiyatda olan hərbçilər, onların ailə üzvləri və mülki vətəndaşlar da ambulator müayinə və müalicə alırlar".





Tibb zabiti ilə söhbət əsnasında öyrənirəm ki, həkimlərin əksəriyyəti peşə səriştəsini artırmaq üçün Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasına göndərilir. Bununla yanaşı, mütəxəssislər müvafiq dövrdə Hərbi Tibb Fakültəsində ixtisasartırma kursları keçirlər. Poliklinikada, həmçinin, hərbi tibb fakültəsinə, hərbi məktəblərə daxil olan abituriyentlərin müayinəsi və şəhadətləndirilməsi də həyata keçirilir.

Bu gün Azərbaycanın səhiyyə sistemində Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasının qabaqcıl müayinə və müalicə ocağı olmasından qürur duya bilərik. Poliklinikanın bölmə və kabinetlərinə baş çəkib, buradakı tibb xidməti ilə daha yaxından tanış olduq.

Poliklinikaya müraciət edənləri ilk olaraq qeydiyyat otağında Sevinc Məmmədova, Almaz Babayeva və Ərkinaz Məmmədova qarşılayırlar.

Terapiya bölməsinin rəisi, tibb xidməti mayoru Rəşad Qubadov bildirir ki, düzgün diaqnoz qoyulmadan heç bir xəstəlik müalicə oluna bilməz. 20 ildir ki, poliklinikada hərbçilərimizin sağlamlığının keşiyində dayanan təcrübəli həkim Tərlan Paşayeva isə xəstələrin əsasən bu bölməyə müraciət etdiyini və burada qəti qərar verildikdən sonra stasionar müalicəyə göndərildiyini qeyd etdi.

Cərrahiyyə bölməsinin rəisi, tibb xidməti polkovnik-leytenantı Zaur Cəfərov tabeliyində olan bölmədə müayinə, müalicə, xırda əməliyyatlar, sarğılar, dolama, dırnaq çıxarma, abzeslər kimi tibbi xidmətlərin göstərildiyini, həm də peyvəndlər, vaksinlər vurulduğunu bildirdi.

- Bölməyə müraciət edən nisbətən ağır xəstələr Silahlı Qüvvələrin Baş Klinik Hospitalına yerləşdirilir, - deyən tibb xidməti zabitinə görə, hərbi həkim ekspertizasına gətirilən pasientlər də bölmədə müayinədən keçirilir və onlara tibbi rəy verilir.

- Xəstəliklərin müalicəsi üçün düzgün diaqnostik müayinə çox vacibdir, - deyir radiologiya bölməsinin cavabdeh həkimi Gülnarə Məmmədova. - Hərbi hissələrdən gəlmiş xəstələr rentgen bölməsində hərtərəfli müayinədən keçirilir.

Terapiya bölməsinin psixonevrologiya kabinetinin həkimi Jalə Qarayeva kabinetin ən müasir aparatlarla təchiz olunduğunu bildirdi. Elektroensefaloqrafiya aparatı ilə epilepsiya, bayılmalar, beyinin iltihabi xəstəlikləri, müəyyən yuxu davranış pozuntularında, baş ağrıları aşkarlanmasında, yaşa uyğun beynin elektrik aktivliyinin dəyərləndirilməsində istifadə olunmasından söz açdı.

Cərrahiyyə bölməsinin ginekologiya kabinetinin həkimi Sevil Quliyeva qadın hərbi qulluqçuların müayinə və müalicəsi üçün mövcud olan qabaqcıl tibbi üsullardan söz açdı. Əlbəttə, qadınların hərbi qulluğa cəlb edildiyi hazırkı dövrdə bu bölmənin intensiv fəaliyyəti də çox zəruridir.

Ultrasəs müayinəsi kabinetində həkim-mütəxəssis Turan Əliyeva xəstələrin tam ultrasəs müayinəsinin aparılması üçün lazımi texniki imkanların mövcudluğunu bildirdi. Biz burada olanda "N" hərbi hissəsindən müraciət edən gizir Yalçın Kərimovun öd kisəsində kristallar aşkar olundu və ona müalicə təyin edildi.

Tibb xidməti leytenantı Güntəkin Məmmədzadə funksional diaqnostika kabinetinin rəisidir. O da qeyd edir ki, xəstəyə yüksək tibbi xidmətin göstərilməsi əsas vəzifəmizdir və bu müqəddəs borcun öhdəsindən daim bacarıqla gəlməyə çalışırıq.

Mərkəzi Hərbi Poliklinikada müasir tələblərə cavab verən laboratoriya fəaliyyət göstərir. Burada kliniki, kimyəvi, bakterioloji, immunoloji analizlərin aparılmasına imkan verən şərait yaradılıb.

- Laboratoriya günün tələbləri səviyyəsində fəaliyyət göstərir, - deyir həkim-mütəxəssis Solmaz Osmanova. - Analizlərin dəqiq aparılması və müayinəsi üçün bölmədə bacarıqlı mütəxəssislər çalışırlar. Laboratoriyada qanın ümumi tərkibi, hemoqlabin və biokimyəvi analizləri aparılır.





Hər gün işə başlayarkən bütün cihazlar sıfırlanır, onların texniki sazlığı yoxlanılır və yalnız bundan sonra yeni iş günümüz başlanır.

Tibb xidməti polkovnik-leytenantı Rövşən Hüseynov da poliklinikada öz peşəsinin ustası kimi tanınır, təcrübəli stomatoloqdur. Biz onunla görüşəndə xəstənin dişlərinin müalicəsi ilə məşğul idi. Peşəkar həkim el deyimi olan "Dişin ağrıdısa, çək qurtar" fikri ilə qətiyyən razılaşmadığını bildirir. Onun sözlərinə görə, dişlər vaxtında müalicə olunsa, yuxarıda dediyim el məsəlinə ehtiyac qalmaz.

Oftalmoloji kabinetin rəisi, tibb xidməti polkovnik-leytenantı Rüstəm Səfərli tabeliyində olan kabinetin ən müasir avadanlıqlar olan refraktometr, biomikroskop, foropter, göz üçün USM cihazı, primetr və s. ilə təmin olunduğunu dedi. Bir sözlə, gözlərin müayinəsi burada yüksək səviyyədə həyata keçirilir.

Poliklinikada fəaliyyət göstərən aptekə də baş çəkdik. Aptek rəisi Arzu Niftəliyevanın açıqlamasına görə, poliklinika lazım olan bütün dərman və preparatlarla təmin olunur və burada ambulator xəstələrin dərmanla təminatı həyata keçirilir.

"Tanrının ən dəyərli hədiyyəsi olan həyat çox vaxt tibb bacısının əllərinə həvalə olunmuşdur" deyirdi tibb bacısı peşəsinin qurucusu Florens Naytingeylin. Poliklinikanın baş tibb bacısı baş çavuş Hürnisə Əliyevanı burada hamı təcrübəli tibb bacısı kimi tanıyır. Xəstələrlə çox mehriban davranır. Buna görə də poliklinikada hamı ondan razılıq edir.

Mərkəzi Hərbi Poliklinikanın bir adi günlük fəaliyyəti ilə tanışlıq zamanı burada insan üçün kifayət qədər qiymətli olan sağlamlığın keşiyində dayanan nəcib, xeyirxah tibb kollektivi ilə tanış olduq...

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**N.PƏNAHOVUNDUR**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə kömək)

## Mövzu: 31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı haqqında əldə olan tarixi materiallardan, həmin hadisələrin şahidi olanların xatirələrindən istifadə etməli, eləcə də əvvəlki dərslərdə ermənilərin separatçı siyasəti haqqında öyrənilənləri dinləyicilərə bir daha xatırlatmalı və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti.
2. Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.
3. Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoyulacaqdır.

### *Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti*

Azərbaycanlıların soyqırımı erməni faşizminin xalqımızın taleyinə həkk etdiyi qanlı salnamədir, bəşəriyyət üçün tarixi ibrət dərsidir.

Türklərə və azərbaycanlılara qarşı ermənilərin mütəşəkkil şəkildə misli görünməmiş düşmənçilik siyasəti aparmasının və bunu bir millətin digər millət tərəfindən fiziki cəhətdən məhv edilməsi məqsədi daşıyan milli ideologiyaya və böyük fəaliyyət proqramına çevirməsinin dünya tarixində analoqu yoxdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı da uzun müddət tarixin açılmamış səhifələrindən biri olmuşdur.

Xalqımıza qarşı törədilmiş bütün soyqırımı faciələrinə siyasi qiymət vermək məqsədilə ümummilli lider Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərman imzalamışdı. Həmin fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi tarixə yazıldı.

Bu mühüm sənəddə Azərbaycan XIX əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımların adı tariximizdə ilk dəfə olaraq rəsmən çəkilir, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Cənubi Qafqaz miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış düşmənçilik siyasətinin kökləri açılır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarixi və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görən anti-azərbaycan qüvvələrinin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

### *Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri*

1813 və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Həmin milli faciənin davamı kimi torpaqlarımızın zəbt olunmasına başlanıldı, qısa bir müddətdə 10 minlərlə erməninin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Əhalinin fiziki cəhətdən məhv edilməsi isə Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. XX əsrin əvvəllərində "Daşnaksütyun" və "Hnçak" kimi erməni millətçi partiyalarının fəaliyyətə başlamasından və fanatik kütlələri qatı millətçi ideyalar ətrafında birləşdirməsindən sonra bu proses daha da sürətləndi.

“Böyük Ermənistan” yaratmaq xülyasından ruhlanan ermənilər 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

Erməni terrorçu-quldur dəstələri Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda azərbaycanlılara kütləvi şəkildə divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıq və vəhşiliklə öldürmüşlər. Həmin dövrdə təkcə Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarında 75 Azərbaycan kəndi yerlə-yeksan edilmiş, İrəvan və Gəncə quberniyalarında 200-dən artıq yaşayış məntəqəsi viran edilmişdir. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı öz doğma yurd-yuvasını tərk etmək məcburiyyəti qarşısında qalmışdır.

Birinci Dünya müharibəsi zamanı (1914-1918) zəifləyən Rusiyada baş vermiş 1917-ci ilin fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz ideyalarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martından etibarən "əksinqilabçı ünsürlərlə mübarizə" adı altında Stepan Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası tərəfindən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanıldı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edildi. Ermənilər evlərə od vurur, insanları diri-diri yandırır, milli memarlıq abidələrini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdırdılar.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla həyata keçirilmişdir.

Təkcə 1918-ci ilin mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda, Lənkəranda ermənilər 50 mindən çox azərbaycanlını qətlə yetirmiş, evlərini talan etmiş, on minlərlə adamı öz yurd-yuvalarından didərgin salmışlar.

Yalnız Bakıda 18 minə yaxın soydaşımız xüsusi amansızlıqla qətlə yetirilmiş, Şamaxı qəzasının 58 kəndi dağıdılmış, 7 min nəfərədək adam, o cümlədən 1653 qadın və 965 uşaq öldürülmüş, Quba qəzasının 122 müsəlman kəndi yerlə-yeksan edilmişdi. Qarabağın dağlıq hissəsində 750-dən çox, Zəngəzur qəzasında 115 Azərbaycan kəndi vəhşicəsinə dağıdılmış, əhaliyə qəddarcasına divan tutulmuşdu. İrəvan quberniyasında 211, Qars vilayətində 22 azərbaycanlı kəndi dağıdılmış, yandırılmış və talan edilmişdi.

İrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərindən birində göstərilir ki, bu tarixi Azərbaycan şəhərində və onun ətrafında 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 132 min azərbaycanlı məhv edilmişdir. Erməni cəza dəstələrinin törətdiyi vəhşiliklər və daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1920-ci ildə 70 min nəfərə enmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. 1919 və 1920-ci illərdə martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd olunmuşdur. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinə, XIX əsrdə və XX əsrin əvvəllərində torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Şovinist ruhlu erməni millətçilərinin azərbaycanlılara qarşı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən Sovet hakimiyyəti dövründə də azərbaycanlılar dəfələrlə onlara qarşı yürüdülən antihumanist siyasətlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş millətçi siyasətin əyani təzahürüdür. Həmin siyasətin davamı olaraq, 1948-1953 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1988-ci ildə yenidən baş qaldıran erməni separatizmi, ermənilərin Dağlıq Qarabağda apardığı işğalçı müharibə və etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlı soyqırımı qurbanlarının sayı daha da artmışdır. Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 4 mindən çox azərbaycanlı əsir və itkin düşmüş, girov götürülmüş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi, azərbaycanlıların yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Bütün bunların nəticəsində təkcə XX əsrdə 2 milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri qanlı terror və soyqırım siyasətinin təsirinə məruz qalmışdır. Demək olar ki, indi Azərbaycanda erməni millətçilərinin zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur.

### *Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoyacaqdır*

Dünyada misli görünməmiş qanlı üsullarla zaman-zaman Azərbaycan xalqına qarşı çoxəsrlik tarixə malik düşmənçiliklərindən əl çəkməyən ermənilər yaranmış tarixi şəraitdən sui-istifadə edərək, xalqımızın başına min bir müsibətlər gətirmiş, torpaqlarımızın 20 faizdən çoxunu işğal etmişlər. Bu gün tək Azərbaycan üçün deyil, həm də regionumuz üçün təhlükə mənbəyinə çevrilmiş Ermənistan öz işğalçılıq siyasətinə haqq qazandıraraq, zəbt etdiyi Azərbaycan torpaqları üçün separatçı-şovinist status əldə etmək istəyir, hələ bu azmış kimi Naxçıvan məsələsini də ortaya atır. Digər tərəfdən, özlərinin "əzabkeş xalq" olduqlarını dünyaya car çəkir, "genosid qurbanı" olduqlarını təsdiq elətdirmək üçün dəridən-qabıqdan çıxır, dünya ictimaiyyətini aldadaraq, tarixi saxtalaşdırırlar. Lakin ermənilər Azərbaycan Ordusunun gücünə yaxşı bələddirlər və onlar çox gözəl bilirlər ki, bu ordu daha əvvəlki ordu deyil. Bu, 1994-cü ilin uğurlu, qələbə soraqlı döyüş günlərini yaşamış, döyüşdən-döyüşə möhkəmlənmiş, bərkimiş qüdrətli və nizamlı bir ordudur.

Azərbaycan əsgəri yaxşı bilməlidir ki, ermənilərin apardığı ikiüzlü və riyakar siyasət heç bir nəticə verməyəcək, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı olduğu illərdə formalaşan və inkişaf edən Azərbaycan Ordusu bu gün düşmənin layiqli cavabını verərək, işğal olunmuş torpaqlarımızı azad etməyə qadirdir.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə əlaqədar dövlətimizin siyasətini belə bəyan etmişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Torpaqlarının 20 faizdən çoxunu itirmiş, soydaşlarının bir milyondan artığı qaçqın düşmüş, minlərlə şəhid vermiş Azərbaycan Respublikasının Silahlı Qüvvələrində xidmət edən hər bir hərbi qulluqçu Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün öz döyüş və mənəvi-psixoloji hazırlığını daim artırmalı, hərbi intizamın möhkəmləndirilməsinə çalışmalı, Vətən sevgisini hər şeydən üstün tutmalı, yurdumuzu düşmən təcavüzündən azad etmək üçün daim döyüşə atılmağa hazır olmalıdır. Bunu bizdən erməni işğalçıları ilə qanlı-qadalı döyüşlərdə şəhid olmuş qəhrəman oğulların ruhu tələb edir. Azərbaycan əsgəri Vətəninin ərazi bütövlüyünü bərpa etməyə qadirdir.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# 2016-2017-ci tədris ili üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə kursant qəbulu qaydaları

**I. Ümumi müddəalar:**

Tədris dili: Azərbaycan dili;
Təhsil forması: əyani;
Təhsil müddəti: 4 il;
İxtisas bölgüsü: 1-ci kursun əvvəlində;

Yaş həddi: cari ildə mülki ümumtəhsil müəssisələrinin tam orta təhsil səviyyəsini bitirmiş, 15 sentyabr 2016-cı ilə qədər 17 yaşı tamam olan və 19 yaşı tamam olmayan Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 120 AZN məbləğində müavinət alırlar. Təhsili və fərdi intizamı ilə fərqlənən əlaçı kursantların aylıq müavinətlərinə qanuna müvafiq qaydada əlavələr edilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunlarına hərbi ixtisaslarla yanaşı, müvafiq mülki ixtisaslar üzrə bakalavr dərəcəsi də verilir.

**II. Sənədlərin qəbulu:**

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmaq istəyən namizədlər 1 aprel 2016-cı il tarixdən ərizə ilə məktəbin rəisinə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**

- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- məhkumluğu barədə arayış;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Məktəbə "Təyyarəçilik" ixtisası üzrə daxil olmaq istəyənlər yuxarıda göstərilmiş sənədlərdən əlavə olaraq nəcisdə helmintlərin yumurtalarının və lyambliyaların sistlərinin müayinəsinə dair tibbi sənəd də təqdim etməlidirlər.

Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim edilir.

**III. Ali hərbi məktəbə qəbul iki mərhələdə həyata keçirilir:**

Namizədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

Naxçıvan Muxtar Respublikasında yaşayanlar hərbi həkim komissiyasından Heydər Əliyev adına Hərbi Liseydə (Naxçıvan şəhəri) keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına göndərilir.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlər buraxılır.

Namizədlər Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən I ixtisas qrupu üzrə test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:

- **Azərbaycan dili;**
- **riyaziyyat;**
- **fizika;**
- **kimya;**
- **xarici dil.**

Namizədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilən qəbul imtahanı əsasında qəbul edilirlər.

**Qeyd:** Təhsil haqqında sənəd təqdim etməyən namizədlər Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilən qəbul imtahanlarına buraxılmırlar.

*Sənədlər Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində qəbul olunur (ünvan: Bakı şəhəri, Admiral Naximov küçəsi, 18. Əlaqə telefonu: 479-78-40).*

*Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).*

Test imtahanının tarixi əlavə olaraq bildiriləcək.

Əlavə məlumat Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin internet səhifələrində yerləşdiriləcək: www.aahm.edu.az

# 2016-2017-ci tədris ili üçün Müdafiə Nazirliyinin Hərbi liseylərinə kursant qəbulu qaydaları

**I. Ümumi müddəalar:**

Tədris dili: Azərbaycan dili;
Təhsil forması: əyani;
Təhsil müddəti: 3 il;

Yaş həddi: 15 sentyabr 2016-cı ilə qədər 14 yaşı tamam olan və 16 yaşı tamam olmayan, ümumtəhsil müəssisələrinin 8-ci sinfini bitirmiş Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

Hərbi liseylərə qəbul olan kursantlar təhsil müddətində bütün təminat növlərilə təmin olunur və ayda 46 AZN məbləğində müavinət alırlar.

**II. Sənədlərin qəbulu:**

Hərbi liseylərə qəbul olmaq istəyən namizədlər 1 aprel 2016-cı il tarixdən ərizə ilə hərbi liseyin rəisinə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır:**

- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxədə və çap edilmiş 2 nüsxədə);
- oxuduğu sinfin 1-ci yarımilinin qiymət cədvəli;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- sinif rəhbəri tərəfindən yazılmış və məktəb direktoru tərəfindən təsdiq edilmiş xasiyyətnamə;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 2 ədəd 3x4 sm ölçüdə və 2 ədəd 4.5x6 sm ölçüdə;
- valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- burunətrafı boşluqların rentgenoqrafiyası;
- sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- nəcisdə helmintlərin yumurtalarının müayinəsinə aid tibbi sənəd;
- dizenteriya qrupuna aid müayinə, əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatında olub-olmaması barədə məlumatlar, ambulator xəstənin tibbi kartı (olunmuş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibbi kartından çıxarışlar (forma ¹ 27U), rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibb kartası - forma ¹ 26U).

Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin əsli namizəd tərəfindən şəxsən təqdim olunur.

**III. Hərbi liseylərə qəbul iki mərhələdə həyata keçirilir:**

Birinci mərhələdə namizədlər müraciət etdikləri hərbi liseydə hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

Hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçən namizədlər internet vasitəsi ilə elektron ərizə formasını doldurur, şifrə və iş nömrəsini çap edir, sonra həmin şifrə və iş nömrəsi ilə hərbi liseyin Sənəd Qəbulu Komissiyasına gələrək elektron ərizə formasını təsdiq etdirirlər. Namizədlər qəbul imtahanlarının başlama tarixinə 3-5 gün qalmış hərbi liseyin Sənəd Qəbulu Komissiyasından imtahana buraxılış vərəqəsi alırlar.

İkinci mərhələdə namizədlər Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən test üsulu ilə keçirilən qəbul imtahanı verirlər. Test imtahanı aşağıdakı fənlər üzrə Azərbaycan dilində aparılır:

- **Azərbaycan dili;**
- **riyaziyyat;**
- **fizika;**
- **kimya.**

Namizədlər hərbi liseylərə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilən qəbul imtahanı əsasında qəbul edilirlər.

*Sənədlər C.Naxçıvanski adına Hərbi Liseydə qəbul olunur (ünvan: Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi. Əlaqə telefonu: 538-83-76, 538-83-75).*

*Naxçıvan Muxtar Respublikasında yaşayanlar sənədlərini Heydər Əliyev adına Hərbi Liseyə (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 544-00-15, 544-00-16).*

Əlavə məlumat Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdiriləcək.

Elektron ərizələrin doldurulma, imtahana buraxılış vərəqəsinin verilmə, imtahanların başlama tarixləri barədə məlumatlar Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının internet saytında və kütləvi informasiya vasitələrində elan olunur.

*"Şahin" hərbi idman oyunları*

# Onlar sabahın əsgərləridir





**Muxtar respublikadakı "N" hərbi hissəsində Naxçıvan şəhər tam orta məktəblərinin komandaları arasında keçirilən "Şahin" hərbi idman oyununda 16 komanda mübarizə aparıb.**

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin, muxtar respublikada yerləşən Əlahiddə Ümumqoşun Ordunun, Naxçıvan Şəhər Təhsil Şöbəsinin və muxtar respublikanın Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Tədbirin açılış mərasimində çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov, Əlahiddə Ümumqoşun Ordunun zabiti polkovnik-leytenant Zaur Həmidov, Naxçıvan Şəhər Təhsil Şöbəsinin nümayəndəsi Ruslan Quliyev və muxtar respublikanın Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin nümayəndəsi leytenant Elxan Seyidov gənclərin hərbi vətənpərvərlik tərbiyəsi haqqında danışıb, şahinlərə uğurlar arzulayıblar.

Hərbi idman oyununda komandalar sıra hazırlığı, darağın doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açma, fiziki hazırlıq, maneələrin dəf olunması, mülki müdafiə hazırlığı və qərargah çadırının qurulması mərhələləri üzrə qüvvələrini sınayıblar.

Yarışın yekun nəticəsinə əsasən, Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin komandası bütün rəqiblərinə qalib gələrək I yerə, 15 nömrəli tam orta məktəbin komandası II yerə, 16 və 2 nömrəli tam orta məktəblərin komandaları isə III yerlərə layiq görülüblər. Sonda qalib komandalar təşkilatçıların diplom, fəxri fərman və kuboklarıı ilə mükafatlandırılıblar.

I və II yerin qalibləri apreldə keçiriləcək Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyində Naxçıvan şəhərini təmsil edəcəklər.

* * *

Bu gün məktəblilər arasında hərbə marağın gücləndirilməsi Silahlı Qüvvələrimizin hərbi qüdrətinə olan inam və etibar hissindən qaynaqlanır. Hər il müxtəlif bölgələrimizdə nə qədər yeniyetmə yüksək balla Azərbaycanın ali hərbi təhsil müəssisələrinə qəbul olunur.

Təkcə ölkəmizin paytaxtında deyil, şəhər və rayonlarda da hərbi yönümlü yarışların keçirilməsi dəyərli ənənəyə çevrilib. Bu günlərdə Hərbi Hava Qüvvələrinə məxsus "N" hərbi hissəsində Mingəçevir şəhər məktəblilərinin iştirakı ilə birincilik keçirilib. "Şahin" hərbi idman oyunlarının şəhər birinciliyinin yüksək səviyyədə keçirilməsi üçün hərbi hissənin zabit heyəti öz köməklərini əsirgəməyib.

Martın 12-də birinciliyin açılış mərasimində çıxış edən polkovnik-leytenant Mübariz Feyzullayev daim hərbi hissənin kollektivi tərəfindən məktəblərə hamilik göstərildiyini və belə tədbirlərin bundan sonra da davam etdiriləcəyini qeyd edərək yarış iştirakçılarına uğurlar arzulayıb.

Sonra Mingəçevir şəhər İcra Hakimiyyətinin məsul nümayəndəsi Elşən Əliyev, Gənclər və İdman İdarəsinin rəisi Kamal Nəcəfov, müharibə veteranları, ziyalılar və başqaları çıxış edərək komanda üzvlərini salamlayıblar. Onlar əminliklə bildiriblər ki, belə tədbirlərin ardıcıl keçirilməsi böyüməkdə olan nəslin vətənpərvərlik tərbiyəsində mühüm əhəmiyyət kəsb edir.

**"Azərbaycan Ordusu"**



*Silahlar*

# Negev pulemyotu

Negev yüngül əl pulemyotu İsrailin İMİ silah konserni tərəfindən istehsal olunur. Rəqibə qarşı pulemyotdan daha çox istifadə edən İsrail ordusu müasir və universal hesab edilən "Negev" əl pulemyotunu çöl sınaqlarından sonra 1997-ci ildə silahlanmaya qəbul edib. Adi ayaqsız lülələrdən istifadə etdikdə pulemyot həmlə avtomatı kimi istifadə olunur. Silahı nəqliyyat vasitəsi və döyüş maşınlarının üzərində də quraşdırmaq mümkündür.

5.56 mm çaplı Negev pulemyotu bütün digər analoji silahlar kimi avtomatikliyi barıt qazı vasitəsilə təmin edir. Asan dəyişdirilən lülənin iki növü var - standart və qısaldılmış (şəhər şəraitində yaxın döyüş üçün - "komando" variantı).

Pulemyotun qazburaxıcı mexanizmi lülənin altında yerləşir. Pulemyotdan həm təktək, həm də qatarla atəş açmaq mümkündür. Atəş tezliyini dəyişmək üçün keçirici-qoruyucu tapança dəstəyinin solunda yerləşir. Bundan əlavə, konstruksiyada silahdan atəş tempini nizamlamaq da nəzərdə tutulub. Yəni qaz nizamlayıcısı üç vəziyyətdə ola bilər. Birincisi, qaz kamerasının bağlı vəziyyətə gətirilməsi və tüfəng qumbarasının atışı, ikincisi, dəqiqədə 700-850 atış və üçüncüsü, dəqiqədə 850-1000 atış etmək üçündür.

Negev pulemyotunda 5.56 mm çaplı standart NATO patronlarından istifadə edilir. Müvafiq yivli lülə bərkidildikdən sonra M193 patronlarından da istifadə etmək mümkündür. Eyni zamanda, ixrac üçün nəzərdə tutulmuş Negev pulemyotunda xüsusi adaptor qoyulduqdan sonra M16 tüfənglərinin 30 patron tutan daraqları da atış üçün yararlıdır.

Pulemyota 150-200 patron doldurulan lentli qutu və ya Qalil avtomatının 12, 35 və 50 patron tutan darağı bərkidilir.

Patron lenti lülə qutusuna yuxarıdan keçirilir və soldan sağa verilir. Gülləsi atılmış boş gilizlər isə sağa tökülür.

Negev pulemyotunun açıq qundaqla uzunluğu 1020 mm, yığılmış qundaqla 790 millimetrdir. Standart lülənin uzunluğu 460 millimetrdir. İstənilən vaxt qundağı yığmaq və ya qatlamaq mümkündür. Həmçinin silahın qısaldılmış lüləyə malik Negev Kommando versiyası da var.

Pulemyotun boş çəkisi 7.4, dolu qutu ilə birlikdə 9.95, altı yivli lülənin çəkisi isə 2.8 kiloqramdır. Silahın nişangah məsafəsi 1000 metrdir.

2012-ci ildə pulemyotun 7.62 mm çaplı başqa versiyası da hazırlanıb. Bu silahdan yarımavtomat rejimində təktək atəş açmaq mümkündür.

Negev pulemyotlarına qulluq çox asandır, natamam sökülmə zamanı silah altı hissəyə ayrılır.

**"Azərbaycan Ordusu"**



# Xarici hərbi xronika

## Sualtı qayıqlar torpedoəleyhinə sursatla təchiz ediləcək

Rusiyanın Hərbi Dəniz Donanmasının dizel-elektrik sualtı qayıqları özünü müdafiə etmək üçün torpedoəleyhinə sursatla təchiz ediləcək. Bu haqda "Admiral tərsanəsi"nin baş direktoru məlumat verib. Hazırda bu qayıqlar passiv özünümüdafiə vasitələrindən istifadə edir. Torpedoəleyhinələr sualtı qayıqları atəşə tutan düşmənin hədəflərini uzaq məsafədən məhv etməyə imkan verir. Rusiyanın HDQ-nin silahlanmasına 324 mm-li torpedo və sualtı qayıq əleyhinə 324 mm-li "Paket" kompleksi qəbul edilib. Reaktiv M-15 torpedası 1400 metrlik məsafədən hədəfləri məhv edir.

## F-16 Fiqhtinq Falcon

F-16 Fiqhtinq Falcon davamlı və yüksək döyüş qabiliyyətinə malik olan uğurlu qırıcıdır. Müasir dövrdə bu təyyarələr Belçika, Yunanıstan, Niderland, Norveç, Polşa, Portuqaliya, Türkiyə, həmçinin ABŞ-ın silahlanmasına qəbul edilib. İlk olaraq bu döyüş maşını yüngül qırıcı kimi yaradılıb, sonralar isə çoxfunksiyalı hücum təyyarəsinə çevrilib.

## Reaktiv "Uraqan-1M" sistemi dövlət sınağını həyata keçirib

Perspektiv bikalibrli "Uraqan-1M" sisteminin dövlət sınağı uğurla həyata keçirilib və yaxın vaxtlarda Rusiya ordusunun silahlanmasına daxil ediləcək. Onun modernləşdirilməsinin əsas mahiyyəti raketlərdən, iri kalibrli döyüş sursatlarından istifadə etməkdir. "Bikalibrlik" maşına atəşi iri kalibrli mərmilərlə atmağa imkan verir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Kapitan Şamilov Eldəniz Rüfət oğluna 2007-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Nəzərov Həsən Qulam oğluna 2012-ci ildə verilmiş ehtiyatda olan zabitin şəxsi vəsiqəsi və şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Həsənov Elman Mehman oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Çobanov Qulu Nəsir oğluna 2014-cü ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 125
Nüsxə 4700